Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

Layihənin istiqaməti:
"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

# Belə qısa-uzun ömür

**Azərbaycanın Xalq artisti Muxtar Avşarovu bir sənətkar kimi qiyabi olaraq lap çoxdan, teatr və kino rollarından tanıyırdım. Amma onunla şəxsən görüşməmişdim. Bu ağsaçlı aktyorun iti baxışları, yüzlərlə aktyorun arasından seçilən səs tembri, danışıq tərzi onu başqalarından fərqləndirirdi.**

İnsanın ölümü hansı yaşda olursa-olsun həmişə faciədir, sarsıdıcıdır. Xüsusilə cavanları bu həyatdan qoparıb aparması ədalətsizlikdir. Mən bu məqalədə M.Avşarovdan danışarkən oxucular və tamaşaçılar deyə bilərlər ki, bu aktyor vəfat edəndə onun nə az, nə çox düz 90 yaşı tamam olmuşdu.

Gənclik yaşla yox, insanın ruhən sakit qala bilməməsi, başqalarına lazım olması və xeyir verməsi ilə təyin edilir. Ələlxüsus söhbət sənət adamından gedirsə .

Təxminən ölümündən bir-iki il əvvəl mən Muxtar müəllimlə Bakının Sahil metrosunun qarşısında rastlaşdım. Salam verib keçmək istərkən qolumdan tutub saxladı. Bir daha yaxından tanış olduq. M.Avşarov əvvəlcə mənim "Mədəniyyət" kanalında apardığım "Kinosalnamə" verilişi haqqında öz fikirlərini söylədi. Daha sonra milli kinomuz barədə danışdıq, rəhmətə gedən sənətkarları yad etdik. Bu qəfləti rastlaşmadan istifadə edib onun yaradıcılığı və həyatı barədə bir neçə sualıma ətraflı cavab ala bildim. Çox keşməkeşli ömür sürdüyünü eşitmişdim. Amma özündən bunları eşitmək mənim üçün daha vacib idi. Muxtar müəllimin yaddaşı güclü idi, həm də gəncliyə xas olan bir çeviklik var idi onda. Xeyli söhbətdən sonra biz ayrıldıq.

Qəribədir, sağlığında vaxt tapıb onunla əməlli-başlı görüşməyə imkan olmadı. Amma sonra çox peşmançılıq çəkdim. Çünki sənətlə bağlı söhbətlərimiz yarımçıq qaldı. Onun da mənə deyəcəkləri çox idi.

Bu yazını qələmə alanda xəyalən Muxtar müəllimə müraciət edir, ona bir neçə sual verir və bu suallara necə reaksiya verəcəyini bilmək istəyirdim. Mən bir sualın cavabını eşidəcəyimi dəqiq bilirdim. Əgər M.Avşarovdan soruşsam ki, "Siz taleyinizdən razısınızmı?", o, bu suala müsbət cavab verərdi. Baxmayaraq ki, onun həyatı rəvan keçməmişdi, ömrü boyu ağır, çətin sınaqları dəf etməli olmuşdu.

1918-ci ildə Ermənistanda azərbaycanlılara qarşı soyqırımı başlananda Muxtarın dörd yaşı vardı. Həsən kişi ailəsini bu bəladan qorumaq üçün yaşayıb çalışdığı İrəvanı məcburi tərk etməli oldu. Avşarovlar ailəsi Türkiyəyə gedib bir müddət burada yaşadı. Sonra onlar Bakıya, daha sonra Gəncə şəhərinə köçdülər.

Muxtar Gəncə Dəmiryol məktəbində oxudu. Təhsilini davam etdirmək üçün Bakıya gəlib, Dəmiryolçuların sənət məktəbinə daxil oldu. Burada təhsil alarkən Dəmiryolçuların klubunda məşhur aktyor Ülvi Rəcəblə tanış oldu və onun rəhbərliyi altında həvəskar aktyor kimi fəaliyyətə başladı. Aktyor Ü.Rəcəbin xeyir-duası ilə M.Avşarov Gəncə Dövlət Dram Teatrında aktyor işlədi. O, burada müxtəlif rollar ifa etməklə yanaşı, hərdən Bakıya gəlib teatrlara da baş çəkir, tamaşalara baxırdı. Özünün dediyinə görə, gələcək həyat yoldaşını da Opera və Balet Teatrının tamaşa zalında görüb ilk baxışdan ona vurulmuşdu.

M.Avşarov 1939-cu ildə subaylıqla vidalaşıb ailə qurur. Lakin bir ildən sonra onu həbs edirlər. O özü müsahibələrinin birində bu barədə belə demişdir: "O illərdə respublikamızda mövcud olan nöqsanlarla, bəzi haqsızlıqlarla barışa bilmirdim. Necə olur ki, bizim əlifbamızı dəyişirlər, ermənininkini yox. Gəncə şəhərinin adının dəyişdirilərək Kirovabad qoyulmasına və Gəncə Teatrına Beriyanın adının verilməsinə sakit baxa bilmirdim. İctimai yerlərdə bu barədə öz fikirlərimi söyləmişdim. Bəzi yoldaşlar teatrın adının Nizami Gəncəvi və ya Məhsəti Gəncəvi, digərləri isə Məhəmməd Hadi qoyulmasını istəyirdilər. Amma bizim təkliflərimizə heç məhəl qoyan da olmadı. Onda teatrdakı işçilər arasında belə bir fikir söyləmişdim ki, mən Beriyanın düşməni deyiləm. Teatr isə bizim mədəniyyət ocağımızdır, bizim ikinci evimizdir. Nə üçün teatrımıza şairlərdən, dramaturqlardan birinin adı verilməsin. Axı, Beriyanın teatrla nə əlaqəsi var...

Sən demə, teatrda çalışan erməni fəhlə bu xəbəri sonradan NKVD-yə çatdırıbmış. Mənim də xəbərim yox. 1939-cu ilin noyabr ayında axşam tamaşada Dzerjinski rolunu ifa edəndən sonra məni elə teatrdan götürüb apardılar. Düz beş il həbsxana həyatı yaşamalı oldum. Həbsdə olarkən əlimə düşən kağız parçalarına yuxarılara şikayət ərizəsi yazırdım. Həmin ərizələrdən biri həqiqətən gedib yuxarılara çatır. Beləliklə də, məsələmə yenidən baxılır, məni vaxtından beş il əvvəl azadlığa buraxırlar".

M.Avşarovla yenicə həyat qurmuş Fatma xanım ərinin həbsindən sonra nə qədər çətin, ağır günlər keçirsə də Muxtarın nə vaxtsa geri qayıdacağına ümidini qırmırdı. Lakin qaynana cavan gəlininin necə əzab çəkdiyini görüb, bir gün onunla ana-bala söhbəti edir:

Qaynana: Qızım, görürəm ki, gecə-gündüzün yoxdur, nə evdə, nə də bayır-bacada özünə rahatlıq tapa bilmirsən. Mənim oğlum adi dustaq deyil. Siyasi dustaqdır. Onun həbsdən buraxılıb buraxılmayacağını Allahdan başqa heç kim bilmir. Sən çox cavansan, həyatını yenidən qura bilərsən.

Gəlin: Nə qədər ki, Muxtar sağdır, mən



onun yolunu gözləyəcəyəm. Özüm də inanıram ki, o, nə vaxtsa qayıdacaq. Mütləq qayıdacaq. Biz yenə də bir yerdə olacağıq...

Mən bu söhbəti eşidəndə rəhmətlik anam yadıma düşdü. Atamın Böyük Vətən müharibəsindən qara kağızı gəldi. Anam atamın ölümünə inanmadı. O, iki körpə uşaqla 24 yaşında dul qaldı. 72 yaşında rəhmətə gedənə kimi gözü qapıda qaldı.

Muxtar müəllim bəraət aldıqdan sonra yenidən C.Cabbarlı adına Gəncə Dövlət Teatrında fəaliyyətini davam etdirir. Hətta Qoqolun "Müfəttiş" komediyası ilə (Xlestakov rolu) Ümumittifaq müsabiqəsində iştirak edir.

Aktyorun şəhərdə ildən-ilə yox, aydan-aya hörmətinin artdığını görən NKVD onu "etibarsız element" siyahısına salır, hətta onu işdən azad etdirir. O, bir müddət dəyirmanda fəhlə işləyir. Nəhayət 1953-cü ildə Stalinin vəfatından sonra yenidən doğma teatra qayıda bilir.

Muxtar müəllim bir dəfə Bakıda olarkən böyük dramaturq Cəfər Cabbarlının həyat yoldaşı Sona xanımın görüşünə gedir. O, C.Cabbarlının adını daşıyan Gəncə Dövlət Dram Teatrında işlədiyini və bu teatrın səhnəsində görkəmli ədibin anadan olmasının 60 illiyi münasibətilə "Nəsrəddin şah" pyesini tamaşaya hazırladıqlarını bildirir.

Gərgin məşqlərdən və hazırlıq işlərindən sonra "Nəsrəddin şah" tamaşası uğurla oynanılır, Nəsrəddin şah rolunu Muxtar Avşarov ifa edir. O, həmin günləri belə xatırlayırdı: "Mən Bakıda olanda Sona xanımı "Nəsrəddin şah" tamaşasına dəvət etmişdim. O da bir neçə qohumu ilə Gəncəyə gəlib tamaşada iştirak etdi. Hətta tamaşadan sonra fikrini bizimlə bölüşərkən həm razı qaldığını, həm də mənim oyunumu bəyəndiyini bildirdi. Mən Sona xanımı evimə dəvət etdim. O, məmnuniyyətlə dəvətimi qəbul edib bizə gəldi, həyat yoldaşım Fatma xanımla, uşaqlarımla tanış oldu. Həmin axşam çay süfrəsi arxasında teatrdan, sənət adamlarından xeyli söhbət etdik. Mənə elə gəlirdi ki, Sona xanım Cəfər Cabbarlı ilə birgə bizim evimizdə qonaq olmuşdular.

Sonra xəbər tutdum ki, Sona xanım Gəncədə olanda Şəhər Sovetinə gedib, mənim barəmdə, ailəm haqqında danışıbmış, mənzil şəraitimizin yaxşı olmadığını, ailəmin bir otaqlı mənzildə yaşadığını, belə bir şəraitində yaradıcılıqla məşğul olmağın nə qədər çətin olduğunu söyləyibmiş. Onun bu müraciətindən sonra tezliklə şəhərin mərkəzində yeni tikintilərin birində mənə üç otaqlı mənzil verildi".

Aktyor Gəncə Dövlət Dram Teatrında işlədiyi dövrdə yüzdən artıq tamaşada müxtəlif rollar oynayır. Teatrdakı uğurlu fəaliyyətinə görə M.Avşarova 1960-cı ildə Azərbaycanın Əməkdar Artisti fəxri adı verilir.

Görkəmli sənətkar, adı teatr tarixinə qızıl hərflərlə yazılmış, istedadlı rejissor Tofiq Kazımov Akademik Dram Teatrının bədii rəhbəri və baş rejissoru olanda istər digər teatrlardan, istərsə də incəsənət institutundan bacarıqlı, istedadlı aktyorları, hətta son kurs tələbələrini ölkəmizin baş teatrına dəvət edir, burada onlara uyğun rollar tapşırırdı. M.Avşarovla da belə bir hadisə olmuşdu. Rejissor T.Kazımov hər dəfə yolu Gəncəyə düşəndə mütləq teatra gedər, burada oynanılan tamaşalara baxardı. Sən demə, o, çoxdan aktyor M.Avşarovu Bakıya dəvət etmək istəyirmiş. Bir gün yenə də Gəncədə olarkən fikrini Muxtar müəllimə bildirir. Beləliklə də, 1968-ci ildə M.Avşarov Azərbaycan Dövlət Akademik Dram Teatrında işləməyə başlayır.

Onun bu teatrın səhnəsində ilk rolu "Unuda bilmirəm" pyesindəki Kərəm surətidir. Bu surətlə bağlı M.Avşarovun dediklərindən: "Tofiq müəllim məni Kərəm roluna təsdiq etsə də, bəzi rəhbər yoldaşlar Kərəmi gözəl sənətkar Əliağa Ağayevin daha yaxşı yaradacağını söyləyirdilər. Amma Tofiq Kazımovun cavabı qəti idi. Tamaşanın məşqlərinə başlayanda baxdım ki, bu obrazı inandırıcı yaratmaq üçün Təbriz ləhcəsində danışmalıyam. Fikrimi Tofiq müəllimə bildirdim. O, çox sevindi və cavabında dedi: "Muxtar, mənim teatra gətirdiyim hər bir aktyor süzgəcdən keçir, həm də tamaşaya hazırladığım əsərdə aktyorun məharətlə yaratdığı obraz mənim də şöhrətimdir".

Aktyor Akademik Dram Teatrında fəaliyyət göstərdiyi illərdə "Vaqif", "Dəli yığıncağı", "Ölülər", "Solğun çiçəklər", "Maqbet", "Kreml saatı", "Darıxma, ana", "Məhəbbət əfsanəsi", "Kölgələr pıçıldaşır", "Şəhərin yay günləri", "Adamın adamı", "Natəvan" və digər tamaşalarda bir-birindən fərqli surətlər yaratmışdır. 1990-cı ilə kimi bu teatrda çalışan M.Avşarovu yaşına görə işdən azad edirlər.

Muxtar müəllim həmin dövrü belə xatırlayır: "O vaxtlar çox çətin dövr idi. Respublikada qarışıqlıq, yiyəsizlik hökm sürürdü. Aləm qarışmışdı bir-birinə, ağız deyəni qulaq eşitmirdi. Heç vaxt gözləmədiyimiz 20 Yanvar faciəsi baş vermişdi.

Mən bu teatra gələndə direktor Əliheydər Ələkbərov idi. Sonra onu Əli İsmayılov, daha sonra Həsən Turabov əvəz etdi. Həsən müəllim bir ay keçəndən sonra məni yanına çağırıb dedi: "Avşarov, səni teatrdan azad edirəm. Təqaüd vaxtındır, get təqaüdə."

Mən Akademik Dram Teatrından çıxandan sonra Bələdiyyə teatrından, teatrın rəhbəri, Xalq artisti Amalya Pənahovadan dəvət aldım. Aktrisalardan Mirvari Novruza, Sofa Bəşirzadə, Məhluqə Sadıqova da bu teatra gəldilər.



Aydın Kazımzadə

Azərbaycanın xalq artisti fəxri adına da elə burada layiq görüldüm".

Muxtar müəllimin dediklərinə onu da əlavə edək ki, görkəmli aktyor 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Muxtar Avşarovu hələ Gəncə teatrından tanıyan C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının direktoru Adil İsgəndərov onu filmlərə çəkilməyə dəvət edir. Aktyor ilk dəfə 1938-ci ildə Gürcüstanda çəkilmiş "Georgi Saakadze" filmində epizodik rolda çıxış etmişdir, Azərbaycanda isə ilk dəfə 1965-ci ildə rejissor H.Seyidzadənin "Yenilməz batalyon" filmində yenə də epizodik qaçaq rolunda oynamışdır. Ümumiyyətlə M.Avşarov 25-ə qədər filmdə, o cümlədən "Axırıncı aşırım", "Arxadan vurulan zərbə", "Babamızın babasının babası", "Birisigün, gecəyarısı", "Cin mikrorayonda", "Etiraf", "General", "Gözlə məni", "Güllələnmə təxirə salınır", "Gün keçdi", "Güzgü", "Hacı Qara", "Xatirələr sahili", "İşarəni dənizdən gözləyin", "Qatır Məmməd", "Qızıl uçurum", "Şəhərli biçinçilər" və s. filmlərdə çəkilmiş və əsasən epizod ustası kimi tanımışdır.

Müəllif Ş.Cəfərov "Muxtar Avşarov - 90" kitabında (Bakı, 2004) aktyorun kino rollarından danışaraq qeyd edir ki, "Dəli Kür" filmindəki rolun müvəffəqiyyətli alınması onun kino sahəsindəki fəaliyyətini artırır və bundan sonra "Atları yəhərləyin" filminin çəkilişləri başlayır. Burada İran kəndxudası obrazını yaradan M.Avşarov xarakterik bir aktyor oyunu göstərmişdir. Orada kəndxudanın davranışı ilə bərabər səs diapazonu da roldakı xarakterin açılmasına olduqca real kömək etmişdir. Aktyorun roldakı bu qədər dəyişkənliyi onun yaradıcılıq qabiliyyətinin həddən artıq genişliyindən irəli gəlir...

Göstərdiyimiz bu misaldan da aydın olur ki, M.Avşarov kinoda epizod ustası idi. Doğru deyiblər ki, rolun böyüyü-kiçiyi yoxdur, aktyorun böyüyü-kiçiyi var.

C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında filmlərə çəkilməkdən əvvəl Muxtar müəllim sovet və xarici filmlərin Azərbaycan dilinə dublyajı ilə məşğul olurdu. Onun iştirakı ilə səsləndirilmiş onlarla film bu gün də mavi ekranlarda nümayiş etdirilir.

Ömrün 90 ilinin 65 ilini teatra, kinoya, televiziya və radio tamaşalarına həsr etmiş böyük sənətkar həm də el ağsaqqalı, nümunəvi ər, ata və baba olmuşdur.

2002-ci ildə ona mədəniyyət və incəsənət sahəsindəki böyük xidmətlərinə görə Azərbaycan Prezidentinin fərdi təqaüdü verilmiş, həmin il Respublikanın Xalq artisti fəxri adına layiq görülmüşdür.

Görkəmli teatr və kino xadimi M.Avşarov 2004-cü il dekabrın 6-da dünyasını dəyişmişdir.

İnsan sözü ilə əməli düz olanda şəxsiyyət zirvəsinə yüksəlir. Ona görə də Xalq artisti, gözəl şəxsiyyət Muxtar Avşarov dünya durduqca xatirələrdə, yaratdığı obrazlarda əbədi yaşayacaqdır.

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*